# Səmimi dost və qardaş ölkə



***Dövlət başçısının Pakistana səfəri tarixi kökə bağlılıq baxımından mühüm əhəmiyyət kəsb edir***

**"Biz görüşəndə əziz qardaşımdan xahiş etdiyim ilk məsələlərdən biri salamlarımı və hörmətimi mənim çox hörmət etdiyim və 7 il əvvəl burada - bu binada görüşdüyüm qardaşım, Baş nazir Nəvaz Şərifə çatdırmaq oldu. İndi isə mən böyük qardaşımıza hörmətimi kameralar qarşısında ifadə etmək istəyirəm. Mənim Pakistana 7 ildən sonra qardaşımın qardaşı Baş nazir olduğu zaman səfər etməyim rəmzi məna kəsb edir". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 11-də İslamabadda Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında deyib.**

Dövlət başçısı qeyd edib ki, bizim qardaşlığımız xalqlarımızın bir-birinə olan dərin hisslərinə əsaslanır. Azərbaycana gələn pakistanlıların sayı son illər ərzində daha da artıb və biz Bakı-İslamabad, Bakı-Kəraçi, Bakı-Lahor arasında birbaşa uçuşları artıq müzakirə etdik. Bir sözlə, Pakistandan gələn insanlar İçərişəhəri ziyarət edəndə və Karvansaranı görəndə onu Multan adlandırırlar. Beləliklə, onlar bizim əsrlər boyu bir-birimizə necə bağlı olduğumuzu anlayırlar. Həqiqətən, bu bağlantı böyük sərvətdir.

Xatırladaq ki, Azərbaycan-Pakistan münasibətlərinin tarixi çox qədimdir. Təxminən beş yüz il öncə Bakı hökmdarları o zaman Şərq ilə Qərbin qovuşuğunda, məşhur İpək Yolunun üstündə yerləşən Azərbaycana səfər edən Multan tacirləri üçün karvansara - multan karvansarasını inşa etdirmişdi. O vaxtlar Multandan olan tacirlər bu günədək adını qoruyub saxlamış karvansarada qalaraq buranın qonaqpərvərliyinin şahidi olurdular. Multan karvansarası dəyərli mədəni və tarixi irs kimi Azərbaycan hökuməti tərəfindən mühafizə edilir.

Azərbaycanın həm Avropanın, həm də Asiyanın müxtəlif regionlarında yerləşən dövlətlərlə ikitərəfli əlaqələri onu qitələrarası qovşağa çevirir. Ölkəmizin sıx dostluq və qardaşlıq əlaqələri qurduğu, qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ölkələrdən biri də Pakistandır. Hər iki ölkə həm ikitərəfli, həm də çoxtərəfli platformalarda bir-birinə daim dəstək göstərir və əlaqələrimiz bütün sahələrdə sürətlə inkişaf edir.

Pakistan və Azərbaycan arasındakı əlaqələr mədəni irs, qlobal və regional məsələlərlə bağlı sərgilədikləri birgə münasibət və beynəlxalq forumlarda əməkdaşlıqla xarakterizə olunur. İki qardaş dövlət müdafiə, enerji, infrastruktur layihələrinin icrası, informasiya texnologiyaları, səhiyyə və əczaçılıq, tekstil və farmakoloji preparatlar, xüsusilə bütün mümkün domenlərdə birgə müəssisələrin qurulması və digər sahələrdə əməkdaşlıq edir. Azərbaycanın bu dost ölkə ilə əməkdaşlığında hərbi amil də hər zaman mühüm rol oynayıb. Bu cəhətdən Azərbaycanla Pakistan arasında imzalanan müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub. Bu müqavilə ilə dövlətlərimiz arasında hərbi əlaqələr daha da genişlənib.

Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olan Pakistan İslam Respublikası arasında diplomatik münasibətlər 32 il əvvəl qurulub. Türkiyə ilə yanaşı, Pakistan da ötən 30 il ərzində Azərbaycan torpaqlarını işğal etdiyinə görə işğalçı Ermənistanla diplomatik münasibətlər qurmayan və müxtəlif tribunalardan işğalçı ordunun Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən ikinci dövlətdir. Öz növbəsində, Azərbaycan da Kəşmir problemində İslamabadın mövqeyini daim dəstəkləyib və ölkəmizin iştirak etdiyi layihələrdə Pakistanın da tam iştirakı üçün ona hərtərəfli dəstək verib. İkinci Qarabağ müharibəsində Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstək bu münasibətləri möhkəmləndirib. Məhz bu kontekstdə Pakistanda siyasi hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Azərbaycana münasibət birmənalı olaraq dəyişməz qalır. Bu amil ölkələrimiz arasında münasibətləri gələcək inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Cənubi Asiya dövlətləri sırasında Azərbaycanın ən sıx əlaqələr qurmuş və qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmiş ölkə Pakistandır. Pakistan İslam Respublikası Cənubi Asiyanın, İslam Şərqinin və İslam Əməkdaşlıq Təşkilatının ən fəal, nüfuzlu və hərbi-siyasi baxımdan güclü dövlətlərindən biridir. ABŞ ilə strateji tərəfdaşlıq münasibətlərinə malik olan bu ölkə həm də dünya siyasətində önəmli rol oynamaqdadır. Pakistan dünyada atom silahına və raket texnologiyasına malik olan yeganə müsəlman dövlətdir.

Ümumiyyətlə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Pakistanla möhkəm təməllər üzərində qurulan siyasi əlaqələr daim inkişaf etdirilib və bugünkü strateji müttəfiqlik səviyyəsinə yüksəldilib. Dövlət və hökumət başçılarının qarşılıqlı olaraq bir-birinə səfərlər etməsi ikitərəfli əlaqələrin genişlənməsinə impuls verib. Ümummilli lider Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın ovaxtkı Baş naziri Benazir Bhutto ilə görüşündən sonra ikitərəfli münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. 1995-ci il oktyabrın 9-11-də ilk dəfə olaraq Pakistanın Prezidenti Sərdar Faruq Əhməd Xan Leqari Azərbaycana rəsmi səfər edib. 9 aprel 1996-cı ildə isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Pakistanda rəsmi səfərdə olub. İki ölkə arasında münasibətlərin inkişafına xüsusi təkan verən görüşdə 9 sənəd imzalanıb. Azərbaycan və Pakistan prezidentləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemlərində bir-birilərini dəstəklədiklərini bəyan ediblər. Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Dövlət və Hökumət başçılarının 9-11 dekabr 1997-ci ildə Tehranda keçirilən VIII zirvə görüşündə iştirak etmək üçün səfərdə olarkən Pakistanın Baş naziri Nəvaz Şəriflə görüşüb. Görüş zamanı Prezident Heydər Əliyev bir daha bildirib ki, nüfuzlu beynəlxalq təşkilatların toplantılarında Azərbaycan həmişə Pakistanın mövqeyini dəstəkləyib. Baş nazir Nəvaz Şərif də Pakistanın Azərbaycanın haqq işini dəstəklədiyini elan edib və Ermənistanın təcavüzkar siyasətini qətiyyətlə pisləyib.

Prezident İlham Əliyev Pakistanla əlaqələrin inkişafına xüsusi önəm verir və ölkənin ali siyasi rəhbərliyi ilə qarşılıqlı inam və etimada əsaslanan yüksəksəviyyəli münasibətləri davam etdirir. Bu da ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf dinamikasına mühüm təkan verir və müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsində xüsusi rol oynayır. Pakistan İslam Respublikasının Prezidenti mərhum Pərviz Müşərrəf 2004-cü il iyulun 8-10-da Azərbaycana rəsmi səfər etmişdir. 2005-ci il aprelin 12-13-də Prezident İlham Əliyev Pakistanda rəsmi səfərdə olmuşdur. Habelə keçmiş Prezident Asif Əli Zərdari, sabiq Baş nazir Şövkət Əziz, keçmiş hökumət başçısı Nəvaz Şərif Azərbaycana işgüzar və rəsmi səfərlər ediblər. Dövlətimizin başçısının 2017-ci il 28 fevral - 1 mart tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Zirvə toplantısında iştirak etmək üçün dost ölkəyə işgüzar səfəri ikitərəfli əlaqələrdə yeni səhifə açıb, əməkdaşlığın yeni inkişaf perspektivlərini müəyyənləşdirib.

2017-ci ildə Prezident İlham Əliyev Pakistan İslam Respublikasında rəsmi səfərdə Baş nazir Məhəmməd Nəvaz Şərif ilə görüşüb. Görüşdə müdafiə və müdafiə sənayesi sahəsində konkret layihələr müzakirə olunub, Azərbaycanın Pakistanın inkişaf etmiş hərbi sənaye kompleksinin məhsullarını idxal etməsi ilə bağlı razılaşma əldə edilib. Bundan əlavə, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasının vacibliyi vurğulanıb, Azərbaycan şirkətlərinin Pakistanda ixrac missiyasında olduğu və bu missiyanın Azərbaycanın Pakistana ixracının artırılması məqsədi daşıdığı qeyd edilib.

2023-cü il iyunun 14-15-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycana rəsmi səfər edib. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində ölkəmizin başçısı İlham Əliyevlə keçirdiyi görüş zamanı vurğulanıb ki, səfər münasibətlərin yeni mərhələdə inkişafına zəmin yaradacaq. Bu gün Azərbaycanın etibarlı strateji tərəfdaşı, dost və qardaş Pakistan müasir dünya siyasətində davamlı yüksəlişə malik olan, iqtisadi imkanları və siyasi qüdrəti ilə fərqlənən aparıcı güc mərkəzlərindən biridir. Ortaq dəyərlərə əsaslanan və tarixi köklərə malik olan Azərbaycan-Pakistan münasibətləri nümunəvi xarakter daşıyır və yüksələn xətt üzrə inkişaf edir.

Azərbaycanla Pakistan arasında əməkdaşlıq əlaqələrində qarşılıqlı anlaşma hökm sürür. İstər ikitərəfli, istərsə də çoxtərəfli məsələlərdə ölkələrin mövqeləri üst-üstə düşür. Bu isə beynəlxalq münasibətlər sistemində bir-birinin mövqeyini müdafiə etməsi və gələcəyə birgə addımlaması baxımından olduqca mühüm amildir. Azərbaycan Prezidentinin bu səfərinin də iki ölkə arasında yüksək səviyyəli əməkdaşlığın tamamilə yeni dövrünün açacağını bildirən Baş nazir Şahbaz Şərif mətbuata bəyanatında vurğulayıb ki, Pakistan xalqı Sizi televiziya ekranlarında və sosial mediada görməkdən çox məmnundur. Ona görə məmnundur ki, səmimi dost və həqiqi qardaş öz qardaş ölkəsini ziyarət edir... "Sizin möhtəşəm ölkənizi yenə də ziyarət etməliyəm. İnşallah, noyabr ayında gələcəyəm".

**Mustafa KAMAL,**
**"Respublika".**